الأذربيجانية
Azerbaijani

مترجم لعدة لغات

# صحيح الدعاء والثناء على الله تعالى

# Uca Allaha edilən səhih dualar və təriflər


Dr. Abdullah ibn Həmud əl-Fureyh

د. عبد الله بن حمود الفريح


- Duanın ədəbləri
- Uca Allaha təriflər
- Quranda zikr olunan dualar
- Namazda deyilən dualar
- Peyğəmbərin ﷺ etdiyi dualar
- Peyğəmbərin ﷺ Allaha sığınmaq üçün etdiyi dualar
- Ruqya duaları
- Səhər və axşam zikrləi



Mövzuya aid düyməni bas ki, ona aid olan zikrlər və dualar qeyd edilmiş səhifəyə keçəsən

doa.eqtidaa.com

بسم الله الرحمن الرحيم

# Müqəddimə

Həmd aləmlərin Rəbbi Allaha məxsusdur! Allahın möhtərəm Rəsuluna, Onun əhli-beytinə və cəmi səhabələrinə salavat və salam olsun!

Bu, maraqlı bir kitabdır. Bu kitabın içində növbənöv yığcam dualar (Uca Allaha edilən təriflər, Quranda zikr olunan dualar, Peyğəmbərin ﷺ etdiyi dualar, Peyğəmbərin ﷺ Allaha sığınmaq üçün etdiyi duaları, şəri ruqya, səhər və axşam zikrləri), həmçinin, duanın ədəbləri zikr edilir. Mən, səhih duaları seçib yazmağa çalışmışam ki, hər bir müsəlman, Quran və Sünnədə varid olan, özündə çoxlu xeyir cəm edən dualarla Allaha yalvarsın. Mən hər bir duanın ərəbcəsini, onun tərcüməsini və onun

necə tələffüz edildiyini qeyd etmişəm. Dualara aid hədislərin səhih olduğunu isə kitabın sonunda zikr etmişəm.

Uca Allahdan istəyim budur ki, bu əməli, səmimi-qəlbdən, Onun ehtirama layiq olan Üzü xatirinə yerinə yetirilən əməllərdən etsin. Peyğəmbərimiz Muhəmmədə, Onun əhli-beytinə və cəmi səhabələrinə Allahın salavatı və salamı olsun!

**Dr. Abdullah ibn Həmud**
**əl-Fureyh**

# Duaların önündə

Ey müsəlman! Sən Rəbbinə möhtacsan...

Pak və müqəddəs Allahın isə buna ehtiyacı yoxdur.

Sən yalnız Quran və Sünnədə olan dualara sarıl.

Bunları qəlbən yerinə yetirməyə hazırlaş...

Bunlar, hər bir xeyri özündə cəm edən dualardır.

Bacardığın qədər bu dualardan əzbərlə.

Nə çox dua var ki, sənin hər bir istəyinin yerinə yetməsinə kifayətdir.

Çünki bunlar yığcam və geniş mənalı dualardır.

Bu dualar sənin qəlbini oyadacaq və Rəbbinə olan mütiliyini artıracaqdır.

## Duanın ədəbləri

**Birincisi:** dua edən adam uca Allaha ixlasla dua etməli və yəqin bilməlidir ki, yalnız uca Allah onun duasını qəbul etməyə qadirdir. Elə isə o, uca Allahdan başqasına dua etməməli və Ondan qeyrisi ilə, – istər peyğəmbər, istər övliya, istər mələk, istər əməlisaleh bəndə və ya başqa kim olursa olsun, – təvəssül etməməlidir. Uca Allah buyurur:

﴿فَٱدۡعُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ﴾ [غافر:14]

**“Dini məhz Allaha aid edərək Ona dua edin!”** (Ğafir, 14).

**İkincisi:** düşünməlisən ki, sənin dua etməklə məşğul olmağın, özlüyündə, uca Allahın sevdiyi əzəmətli ibadətdir və bunun sayəsində dərhal duanın qəbul edilməsilə mükafatlandırılacaqsan..

**Üçüncüsü:** sən uca Allaha arxayın olmalı və Onun sənin diləyini yerinə yetirməyə qadir olduğuna inanmalısan. Habelə, yəqin bilməlisən ki, sənin, Allaha yaxınlaşdıracaq bir məxluqa yaxınlaşmağına və ya müsəlmanı şəriətə zidd olan təvəssülü etməyə sürükləyən bidətlərə ehtiyacın yoxdur.

**Dördüncüsü:** günahlarının sayəsində Allahdan nə qədər uzaq olsan da uca Allah sənin tövbə etməyinə və Ona doğru yönəlməyinə sevinir. Nəbadə duanın qəbul olunmamasını düşünəsən, yaxud Allahın rəhmətindən ümidini üzəsən, əksinə, Onun sənin tövbə

etməyinə və Ona doğru yönəlməyinə sevinməsini düşün, - halbuki Onun buna ehtiyacı yoxdur, - habelə, bu ayələr haqda da düşün:

﴿إِنَّ ٱللَّهَ يَغْفِرُ ٱلذُّنُوبَ جَمِيعًاۚ﴾ [زمر: 53]

**“Şübhəsiz ki, Allah bütün günahları bağışlayır”** (əz-Zumər, 53),

﴿وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌۖ أُجِيبُ دَعْوَةَ ٱلدَّاعِ إِذَا دَعَانِۖ﴾ [بقره: 186]

**“Qullarım səndən Mənim barəmdə soruşsalar, şübhəsiz ki, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm.”** (əl-Bəqərə, 186).

**Beşincisi:** dua edən kimsənin, yemək-içməyinin haram qazancdan olmaması vacibdir. Çünki bu, duanın qəbul olunmasına mane olan

amillərdəndir. Əbu Hureyranın رضي الله عنه rəvayət etdiyi hədisdə Rəsulullah ﷺ, **uzun müddətli səfərə çıxmış, saçları dağınıq, üst-başı da toz-torpaq içində olan və bu halda əllərini göyə qaldırıb:**

«الرَّجُلَ يُطِيلُ السَّفَرَ أَشْعَثَ أَغْبَرَ، يَمُدُّ يَدَيْهِ إِلَى السَّمَاءِ، يَا رَبِّ، يَا رَبِّ، وَمَطْعَمُهُ حَرَامٌ، وَمَشْرَبُهُ حَرَامٌ، وَمَلْبَسُهُ حَرَامٌ، وَغُذِيَ بِالْحَرَامِ، فَأَنَّى يُسْتَجَابُ لِذَلِكَ؟»

**“Ya Rəbb, ya Rəbb!”– deyə yalvaran birisini xatırlatdı.** *Sonra davam edib dedi:* **halbuki onun yediyi, haram, içdiyi haram, geydiyi haram – haramla böyümüşdür. Beləsinin duası necə qəbul ola bilər?!”** Bu hədisi Muslim (1015) rəvayət etmişdir.

**Altıncısı:** dua edən kimsə duanın ədəblərini və sünnələrini yerinə yetirməlidir. Bunlar:

## 1 Namaz üçün dəstəmaz aldığı kimi dəstəmaz alıb pak olduğu halda dua etməlidir.

İki “Səhih” əsərdə Əbu Musanın ﵁ rəvayət etdiyi hədis, əmisi Əbu Amirlə ﵁ olan hadisə buna dəlildir. Bu hədisdə Əbu Amir ﵁ Əbu Musaya ﵁ vəsiyyət etmişdir ki, Peyğəmbərdən ﷺ onun üçün dua etməsini xahiş etsin. Əbu Musa ﵁ *onun istəyini* Peyğəmbərə ﷺ xəbər verdikdə, Peyğəmbər ﷺ su gətizdirib dəstəmaz almış, sonra əllərini göyə qaldırıb demişdir:

«اللَّهُمَّ اغْفِرْ لِعُبَيْدٍ، أَبِي عَامِرٍ»

**“Allahım, qulun Əbu Amiri bağışla!”** O, əllərini o qədər qaldırdı ki, mən onun hər iki qoltuqaltının ağlığını gördüm. O davam edib dedi:

«اللَّهُمَّ اجْعَلْهُ يَوْمَ الْقِيَامَةِ فَوْقَ كَثِيرٍ مِنْ خَلْقِكَ، أَوْ مِنَ النَّاسِ»

**“Allahım, Qiyamət günü onu yaratdıqlarının, yaxud insanların çoxundan üstün et!”** Bu hədisi Buxari (4323) və Muslim (2498) rəvayət etmişdir.

2 **Qibləyə tərəf yönəlməlidir.**

3 **Əllərini göyə qaldırmalıdır.**

Bu iki sünnəyə Abdullah ibn Abbasın رضي الله عنهما rəvayət etdiyi hədis dəlalət edir. O demişdir: “Ömər ibn əl-Xattab رضي الله عنه mənə belə rəvayət etmişdir: “Bədr *döyüşü* günü Rəsulullah ﷺ müşriklərin min nəfər, səhabələrinin isə üç yüz on doqquz nəfər olduğunu gördü. Odur ki, Allahın peyğəmbəri ﷺ qibləyə tərəf yönəlib əllərini *göyə* uzadaraq:

«اللَّهُمَّ أَنْجِزْ لِي مَا وَعَدْتَنِي، اللَّهُمَّ آتِ مَا وَعَدْتَنِي»

**“Allahım, mənə vəd etdiyini yerinə yetir, mənə vəd etdiyini ver!” deyə yalvarmağa başladı.”** Bu hədisi Muslim (1763) rəvayət etmişdir.

4 **Duanı, qüdrətli və qüvvətli Allaha həmd-səna etməklə və Onun rəsuluna ﷺ salavat gətirməklə başlamalıdır.** Buna dəlalət edən hədisdə Rəsulullahın ﷺ səhabəsi Fədalə ibn Ubeyd ﵁ demişdir: “Rəsulullah ﷺ bir nəfərin, Allahın şəninə təriflər demədən və Peyğəmbərə ﷺ salavat gətirmədən namazda dua etdiyini eşitdi. Rəsulullah ﷺ: **“Bu adam tələsdi”**– dedi. Sonra həmin adamı yanına çağırıb ona belə buyurdu:

«إِذَا صَلَّى أَحَدُكُمْ، فَلْيَبْدَأْ بِتَمْجِيدِ رَبِّهِ جَلَّ وَعَزَّ، وَالثَّنَاءِ عَلَيْهِ، ثُمَّ يُصَلِّي عَلَى النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ، ثُمَّ يَدْعُو بَعْدُ بِمَا شَاءَ»

Sonrakı
Əvvəlki
İlk səhifəyə qayıtmaq

**“Sizlərdən biri namazda *dua etmək istəsə*, əvvəlcə qüdrətli və qüvvətli Rəbbinin şəninə təriflər desin və Ona həmd-sənalar etsin, sonra Peyğəmbərə ﷺ salavat gətirsin, daha sonra isə istədi qədər dua etsin.”[1]** Və əgər adam duanı Allaha həmd-sənalar deməklə – ələlxüsus da bəzi surələrin əvvəllərində zikr edilən həmd ayələri ilə başlasa (bu ayələri bir qədər sonra zikr edəcəyik), sonra Peyğəmbərə ﷺ salavat gətirsə, daha sonra uca Allahı müxtəlif cür həmd-sənalarla tərif etsə (bu duaları da bir qədər sonra zikr edəcəyik) duanın qəbul edilməsinə daha yaxın olar.

1 Bu hədisi Əbu Davud (1481), Tirmizi (3477) Fədalə ibn Ubeydə ؓ istinad edərək rəvayət etmiş və Albani “Təhqiq əs-Səlatu alən-Nəbi səllallahu aleyhi və səlləmə” əsərində (səh: 86) onun səhih olduğunu demişdir.

5 **Uca Allah barədə gözəl zənn edərək və duanın qəbul ediləcəyinə yəqinliklə inanaraq Allaha dua etməli, üstəlik, duanın tez qəbul edilməsinə tələsməməli, əksinə, yəqinliklə inanmalıdır ki, uca Allaha onun duasını qəbul edəcək.** Əbu Hureyra ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir:

«لَا يَزَالُ يُسْتَجَابُ لِلْعَبْدِ، مَا لَمْ يَدْعُ بِإِثْمٍ أَوْ قَطِيعَةِ رَحِمٍ، مَا لَمْ يَسْتَعْجِلْ»

**“Adam günah olan bir şey üçün və ya qohumluq əlaqələrinin kəsilməsi üçün dua etmədikcə, habelə, tələsmədikcə duası qəbul olunar.”** *Səhabələr*: “Ya Rəsulullah, tələsmək nədir?” – deyə soruşduqda, Rəsulullah ﷺ belə buyurmuşdur:

«يَقُولُ قَدْ دَعَوْتُ وَقَدْ دَعَوْتُ، فَلَمْ أَرَ يَسْتَجِيبُ لِي، فَيَسْتَحْسِرُ عِنْدَ ذَلِكَ وَيَدَعُ الدُّعَاءَ»

**“Adam: “Dua etdim, dua etdim, lakin duam qəbul olmadı”– deyərək ümidini kəsir və duanı tərk edir.”** Bu hədisi Muslim (2735) rəvayət etmişdir.

6 **Uca Allaha Onun gözəl adları ilə dua etməli və duanın mənasına uyğun olaraq müxtəlif adlarla Ona xitab etməlidir.** Məsələn, Allahdan ﷻ ruzi dilədikdə: “Ya Rəzzaq!”, rəhmət dilədikdə: “Ya Rəhman, ya Rəhim!”, izzət dələdikdə: “Ya Aziz!”, məğfirət dilədikdə: “Ya Ğafur!”, şəfa dilədikdə: “Ya Şafi!”– deyə xitab etməlidir. Beləcə, duanın mənasına uyğun gələn adlarla Allaha ﷻ dua etməlidir. Bu xüsusda uca Allah belə buyurur:

﴿وَلِلَّهِ ٱلۡأَسۡمَآءُ ٱلۡحُسۡنَىٰ فَٱدۡعُوهُ بِهَاۖ﴾ [الأعراف:180]

**“Ən gözəl adlar Allaha məxsusdur. Ona bu adlar vasitəsi ilə dua edin”** (əl-Əraf, 180).

7 **Duanın sözlərini təkrar etməli və *dilədiyini* uca Allahdan israrla istəməlidir.** İbn Abbasın رضي الله عنهما rəvayət etdiyi hədisdə xəbər verilir ki, Bədr *döyüşü* günü Peyğəmbər ﷺ səhabələri üçün:

«اللَّهُمَّ أَنْجِزْ لِي مَا وَعَدْتَنِي، اللَّهُمَّ آتِ مَا وَعَدْتَنِي»

**“Allahım, mənə vəd etdiyini yerinə yetir, mənə vəd etdiyini ver!”**– deyə Rəbbinə dua edərək bunu o qədər təkrar etdi ki, axırda ridası[2] çiynindən yerə düşdü və Əbu Bəkr رضي الله عنه onu yenidən Peyğəmbərin ﷺ çiyninə salıb dedi:

2 Bədənin qurşaqdan yuxarı hissəsini örtən, çiyinə atılan bürüncək.

“Ey Allahın peyğəmbəri! Rəbbinə bu qədər yalvarmağın kifayət edər.” Bu hədisi Muslim (1763) rəvayət etmişdir.

Həmçinin, iki “Səhih” əsərdə Əbu Hureyradan ﵁ rəvayət edilmiş hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ Dövs qəbiləsi üçün belə dua etmişdir:

«اللَّهُمَّ اهْدِ دَوْساً وائْتِ بهم، اللَّهُمَّ اهْدِ دَوْساً وائت بهم»

**“Allahım, dövslilərə hidayət ver və onları *doğru* yola gətir! Allahım, dövslilərə hidayət ver və onları doğru *yola* gətir!”** Bu hədisi Buxari (2937) və Muslim (2524) rəvayət etmişdir.

**“Allahım, dövslilərə hidayət ver və onları doğru yola gətir! Allahım, dövslilərə hidayət ver və onları doğru yola gətir!”** Bu hədisi Buxari (2937) və Muslim (2524) rəvayət etmişdir.

### 8 Duasını gizli şəkildə etməli, yüksək səslə deməməlidir.

Bu xüsusda uca Allah belə buyurur:

﴿ٱدۡعُواْ رَبَّكُمۡ تَضَرُّعٗا وَخُفۡيَةًۚ﴾ [الأعراف: 55]

**“Rəbbinizə acizanə, həm də gizlicə dua edin!”** (əl-Əraf, 55). Duanı gizli şəkildə etmək ixlaslı olmağa daha yaxındır. Odur ki, uca Allah Zəkəriyyanın عَلَيْهِ السَّلَامُ bu şəkildə dua etməsini tərifləyərək buyurur:

﴿إِذۡ نَادَىٰ رَبَّهُۥ نِدَآءً خَفِيّٗا ٣﴾ [مريم: 3]

**“Bir zaman *Zəkəriyya* Rəbbinə gizlicə dua edib demişdi...”** (Məryəm, 3). Bəzi təfsir alimlərinin rəyinə görə, o, *duası* ixlaslı olsun deyən belə etmişdir.

9 **Duanın qaxilində Allaha mədh və Onun şəninə təriflər olmalıdır. Belə ki, uca Allah qulunun Onu tərifləməklə məşğul olmasını sevir.**

İstəyir ki, qulu Onu tərifləyərək Ona ibadət etsin. Yoxsa ki, Allahın Öz qullarına ehtiyacı yoxdur. İki "Səhih" əsərdə, İbn Məsudun ﵁ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur:

«وَلَا أَحَدٌ أَحَبَّ إِلَيْهِ الْمَدْحُ مِنَ اللهِ وَلِذَلِكَ مَدَحَ نَفْسَهُ»

**"Bir də ki, Allah üçün tərif olunmaqdan daha əziz bir şey yoxdur. Odur ki, O, Özünü tərifləyir."**

Bu hədisi Buxari (4634) və Muslim (2760) rəvayət etmişdir.

**10 Dua edən adam duanın hansı vaxtlarda qəbul olunduğunu araşdırıb öyrənməli və uca Allaha həmin vaxtlarda dua etməldir.**

Duanın qəbul olunan yerlərinə və zamanlarına aid sünnədə varid olanlardan bəziləri bunlardır: Azan və iqamə arasında, gecənin son üçdəbirində, cümə saatında, namazların axırında, səcdədə və yağış yağarkən edilən dua, habelə, müsəlmanın, yanında olmayan müsəlman qardaşı üçün etdiyi dua, valideynin öz övladı üçün etdiyi dua, həmçinin, müsafirin və məzlumun duası.

# Qüdrətli və qüvvətli Allaha tariflər



﴿ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ٢ ٱلرَّحۡمَٰنِ
ٱلرَّحِيمِ ٣ مَٰلِكِ يَوۡمِ ٱلدِّينِ ٤﴾

[الفاتحة: ٢-٤]

*Əlhəmdulilləhi Rabbil-aləmin. Ər-Rəhmanir-Rəhim. Maliki yovmiddin.*

**“Həmd, aləmlərin Rəbbi Allaha məxsudur –Mərhəmətli və Rəhmliyə, Din gününün Hökmdarına!”**

(əl-Fatihə, 2-4).

## Uca Allaha təriflər

﴿ٱلۡحَمۡدُ لِلَّهِ فَاطِرِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ جَاعِلِ ٱلۡمَلَٰٓئِكَةِ رُسُلًا أُوْلِيٓ أَجۡنِحَةٖ مَّثۡنَىٰ وَثُلَٰثَ وَرُبَٰعَۚ يَزِيدُ فِي ٱلۡخَلۡقِ مَا يَشَآءُۚ إِنَّ ٱللَّهَ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٞ ١﴾ [فاطر:١]

*Əlhəmdulilləhi fatirəs-səmavati vəl-ərdi, cailil-məlaikəti rusulən uli əcnihətin məsnə və sulasə və rubaə, yəzidu fil-xalqi məə yəşau, innəllahə alə kulli şey'in qadir.*

**"Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur! O, yaratdıqlarından istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir."**

(Fatir, 1).

﴿ٱلۡحَمۡدُ لِلَّهِ ٱلَّذِي خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَ وَجَعَلَ ٱلظُّلُمَٰتِ وَٱلنُّورَۖ﴾ [الأنعام:١]

*Əlhəmdulilləhil-ləzi xələqas-səmavati vəl-ərdə, və cəaləz-zulumati vən-nur.*

**“Həmd, göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha məxsusdur!”** (əl-Ənam, 1)

﴿ٱلۡحَمۡدُ لِلَّهِ ٱلَّذِي لَهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِ وَلَهُ ٱلۡحَمۡدُ فِي ٱلۡأٓخِرَةِۚ وَهُوَ ٱلۡحَكِيمُ ٱلۡخَبِيرُ ١﴾ [سبأ:١]

*Əlhəmdulilləhil-ləzi ləhu məə fis-səmavati və məə fil-ərdi, və ləhul-həmdu fil-axirəti, və huvəl-Həkimul-Xəbir.*

**“Həmd, göylərdəkilərin və yerdəkilərin hamısının sahibi olan Allaha məxsusdur! Axirətdə də həmd Ona məxsusdur. O, Hikmət sahibidir, Xəbərdardır.”** (Səba, 1).

1

«الْحَمْدُ لِلَّهِ حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ»

*Əlhəmdulilləhi həmdən kəsiran tayyibən mubarakən fih.*

**“Həmd Allaha məxsudur! *Özü* də çoxlu, xoş, mübarək bir həmd!”**

2

«رَبَّنَا لَكَ الْحَمْدُ مِلْءُ السَّمَاوَاتِ وَالْأَرْضِ، وَمِلْءُ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ، أَهْلَ الثَّنَاءِ وَالْمَجْدِ، أَحَقُّ مَا قَالَ الْعَبْدُ، وَكُلُّنَا لَكَ عَبْدٌ: اللَّهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلَا مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلَا يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ»

*Rabbənə ləkəl-həmd, mil'əs-səmavati vəl-ardı, və mil'ə mə şi'tə min şeyin bə'd. Əhləs-sənai vəl-məcdi, əhaqqu mə qaləl-abdu, və kullunə ləkə abd. Allahumə, lə mani'ə limə ə'taytə vələ mu'tiyə limə mənə'tə və lə yənfəu zəl-cəddi minkəl-cədd.*

**“Ey Rəbbimiz, həmd Sənə məxsusdur! Göylər və yer dolusu, bundan sonra**

**dilədiyin şeylər dolusu (Sənə həmd olsun). Ey tərif və şərəf sahibi! Bəndənin – hamımız Sənin qulunuq – söylədiyi ən doğru söz budur: Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz”**

**3**

«اللَّهُمَّ لَكَ الْحَمْدُ كُلُّهُ، وَإِلَيْكَ يَرْجِعُ الْأَمْرُ كُلُّهُ»

*Allahummə, ləkəl-həmdu kulluh, və ileykə yərciul-əmru kulluh.*

**“Allahım, bütün həmdlər Sənə məxsusdur və bütün işlər Sənə qayıdacaqdır!”**

4

«اللَّهُمَّ رَبَّنَا لَكَ الحَمْدُ أَنْتَ قَيِّمُ السَّمَوَاتِ وَالأَرْضِ، وَلَكَ الحَمْدُ أَنْتَ رَبُّ السَّمَوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الحَمْدُ أَنْتَ نُورُ السَّمَوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ، أَنْتَ الحَقُّ، وَقَوْلُكَ الحَقُّ، وَوَعْدُكَ الحَقُّ، وَلِقَاؤُكَ الحَقُّ، وَالجَنَّةُ حَقٌّ، وَالنَّارُ حَقٌّ، (وَالنَّبِيُّونَ حَقٌّ، وَمُحَمَّدٌ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ حَقٌّ) وَالسَّاعَةُ حَقٌّ، اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، (وَإِلَيْكَ أَنَبْتُ) وَإِلَيْكَ خَاصَمْتُ، وَبِكَ حَاكَمْتُ، فَاغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَأَسْرَرْتُ وَأَعْلَنْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، (أَنْتَ المُقَدِّمُ، وَأَنْتَ المُؤَخِّرُ) لاَ إِلَهَ إِلَّا أَنْتَ»

*Allahummə, Rabbənə ləkəl-həmdu, əntə qayyimus-səmavati vəl-ardı və mən fihinnə, və ləkəl-həmdu əntə Rabbus-səmavati vəl-ardı və mən fihinnə, və ləkəl-həmdu əntə nurus-səmavati vəl-ardı və mən fihinnə, əntəl-həqqu, və qaulukəl-həqqu, və və'dukəl-həqqu, və liqaukəl-həqqu, vəl-Cənnətu həqqun, vən-Naru haqqun, (vən-nəbiyyunə həqqun, və Muhəmmədun səllallahu aleyhi və sələmə həqqun), vəs-saatu həqqun. Allahummə, ləkə əsləmtu, və bikə aməntu, və aleykə təvəkkəltu, (və ileykə ənəbtu), və ileykə xasəmtu, və bikə hakəmtu. Fəğfir li mə qaddəmtu və mə əxxartu və mə əsrərtu və mə ə'ləntu, və mə əntə ə'ləmu bihi minni. (Əntəl-muqaddimu və əntəl-muəxxiru), lə ilahə illə ənt.*

**“Allahım, ey Rəbbimiz, həmd Sənə məxsusdur! Həmd Sənə məxsusdur! Sən göylərin və yerin Hamisisən. Həmd Sənə məxsusdur! Sən göylərin, yerin və onlarda olanların Rəbbisən. Həmd Sənə məxsusdur! Sən göylərin, yerin və onlarda olanların nurusan. Sən Haqsan. Dediyin söz haqdır. Verdiyin vəd haqdır. Sənə qovuşmaq haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. (Peyğəmbərlər haqdır. Muhəmməd ﷺ haqdır.) Qiyamət saatı haqdır. Allahım! Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, (tövbə edib Sənə döndüm,) Sənin uğrunda mübarizə apardım və Sənin hökmünə üz tutdum. Əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım,**

**məndən daha yaxşı bildiyin pis əməllərimi bağışla! (Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən.) Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur."**

﴿ٱللَّهُمَّ مَٰلِكَ ٱلْمُلْكِ تُؤْتِي ٱلْمُلْكَ مَن تَشَآءُ
وَتَنزِعُ ٱلْمُلْكَ مِمَّن تَشَآءُ وَتُعِزُّ مَن تَشَآءُ
وَتُذِلُّ مَن تَشَآءُۖ بِيَدِكَ ٱلْخَيْرُۖ إِنَّكَ عَلَىٰ كُلِّ
شَيْءٖ قَدِيرٞ ٢٦ تُولِجُ ٱلَّيْلَ فِي ٱلنَّهَارِ وَتُولِجُ
ٱلنَّهَارَ فِي ٱلَّيْلِۖ وَتُخْرِجُ ٱلْحَيَّ مِنَ ٱلْمَيِّتِ
وَتُخْرِجُ ٱلْمَيِّتَ مِنَ ٱلْحَيِّۖ وَتَرْزُقُ مَن تَشَآءُ
بِغَيْرِ حِسَابٖ ٢٧﴾ [آل عمران:٢٦-٢٧]

*Allahummə, Malikəl-mulki, tu'til-mulkə mən təşau, və tunziul-mulkə mimmən təşau, və tuizzu mən təşau, və tuzillu mən təşau, bi yədikəl-xayr, innəkə alə kulli şey'in qadir. Tulicul-leylə fin-nəhari, və tulicun-nəhara fil-leyli, və tuxricul-heyyə minəl-meyyit, və tuxricul-meyyitə minəl-heyyi, və tərzuqu mən təşau bi ğayri hisab.*

**"Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin kəsə verir, istədiyindən də mülkü geri alırsan; istədiyin kimsəni ucaldır, istədiyini də alçaldırsan. Xeyir *yalnız* Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. Sən gecəni gündüzə qatır, gündüzü isə gecəyə qatırsan. Ölüdən diri çıxarır, diridən isə ölü çıxarırsan. Sən istədiyin kəsə hesabsız ruzi verirsən."**

(Bu, “Ali-İmran” surəsinin iki ayəsidir – 26-cı və 27-ci ayələr. 26-cı ayənin əvvəlində biləfəkdən (قُلْ) “De” kəlməsini zikr etməmişik ki, duanın əvvəlinin başlanğıcını göstərək.)

5

«اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ وَرَبَّ الْأَرْضِ وَرَبَّ
الْعَرْشِ الْعَظِيمِ، رَبَّنَا وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ
الْحَبِّ وَالنَّوَى، وَمُنْزِلَ التَّوْرَاةِ وَالْإِنْجِيلِ
وَالْفُرْقَانِ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ شَيْءٍ أَنْتَ
آخِذٌ بِنَاصِيَتِهِ، اللَّهُمَّ أَنْتَ الْأَوَّلُ فَلَيْسَ
قَبْلَكَ شَيْءٌ، وَأَنْتَ الْآخِرُ فَلَيْسَ بَعْدَكَ
شَيْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَيْءٌ،
وَأَنْتَ الْبَاطِنُ فَلَيْسَ دُونَكَ شَيْءٌ، اقْضِ
عَنَّا الدَّيْنَ، وَأَغْنِنَا مِنَ الْفَقْرِ»

*Allahummə, Rabbəs-səmavati, və Rabbəl-ərdi, və rabbəl-arşil-azim. Rabbənə və rabbə kulli şey'in, faliqal-həbbi vən-nəva, və munzilət-tovrati vəl-incili vəl-furqan. Əuzu bikə min şərri kulli şey'in əntə axizun binasiyətih. Allahummə, əntəl-əvvəlu fəleysə qabləkə şey'un, və əntəl-axiru fəleysə bə'dəkə şey'un, və əntəz-zahiru fəleysə fəuqakə şey'un, və əntəl-batinu fəleysə dunəkə şey'un, iqdi annəd-deynə və əğninə minəl-fəqr.*

**"Allahım! Səmaların Rəbbi, yerin Rəbbi, böyük Ərşin Rəbbi, bizim Rəbbimiz və hər bir şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən! Kəkilindən tutduğun** (idarə etdiyin) **hər bir şeyin şərindən Sənə sığınıram. Allahım! Sən**

**Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumuzu ödə, bizi yoxsulluqdan qurtar!”**

6

«اللَّهُمَّ إِنِّي أُشْهِدُكَ وَأُشْهِدُ مَلَائِكَتَكَ وَحَمَلَةَ عَرْشِكَ، وَأُشْهِدُ مَنْ فِي السَّمَاوَاتِ وَمَنْ فِي الْأَرْضِ، أَنَّكَ أَنْتَ اللهُ لَا إِلَهَ إِلَّا أَنْتَ وَحْدَكَ لَا شَرِيكَ لَكَ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُكَ وَرَسُولُكَ»

*Allahummə, inni uşhidukə və uşhidu məlaikətəkə və həmələtə arşikə və uşhidu mən fis-səmavati və mən fil-ərdi, ənnəkə əntəllahu lə ilahə illə əntə, vəhdəkə lə şərikə ləkə, və əşhədu ənnə Muhəmmədən abdukə və rasuluk.*

**“Allahım, Səni, Sənin mələklərini, Ərşini daşıyanları və göylərdə və yerdə olan hər kəsi şahid tuturam ki, Sən, Özündən başqa məbud olmayan, Tək və şəriksiz olan Allahsan və şəhadət gətirirəm ki, Muhəmməd Sənin qulun və rəsulundur!”**

7

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِأَنِّي أَشْهَدُ أَنَّكَ أَنْتَ اللهُ لاَ إِلَهَ إِلَّا أَنْتَ الأَحَدُ الصَّمَدُ، الَّذِي لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ»

*Allahummə, inni əs'əlukə, bi ənni əşhədu ənnəkə əntəlllahu lə ilahə illə əntəl-Əhədus-Samədul-ləzi ləm yəlid və ləm yuləd və ləm yəkun ləhu kufuvən əhəd.*

**"Allahım, Sənə yalvarıram! Mən şahidlik edirəm ki, Sən Özündən başqa *ibadətə layiq haqq* məbud olmayan Allahsan, Təksən, *heç kəsə və heç nəyə* Möhtac deyilsən, doğmayan, doğulmayan və heç bir tayı-bərabəri olmayansan."**

(Hədisdə xəbər verilir ki, bu duada Allahın əzəmətli adı zikr edilir. O ad ki, onunla Allahı çağırdıqda, duanı qəbul edər, onunla Allahdan istədikdə, istədiyini verər.)

8

«لَا إِلَهَ إِلَّا اللهُ الْعَظِيمُ الْحَلِيمُ، لَا إِلَهَ إِلَّا اللهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، لَا إِلَهَ إِلَّا اللهُ رَبُّ السَّمَاوَاتِ وَرَبُّ الْأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ»

*Lə ilahə illəllahul-azimul-həlim, lə ilahə illəllahu Rabbul-arşil-azim, lə ilahə illəllahu Rabbus-səmavati və Rabbul-ərdı və Rabbul-arşil-kərim.*

**“Əzəmətli, Həlim olan Allahdan başqa məbud yoxdur! Böyük Ərşin Rəbbi olan Allahdan başqa məbud yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və Səxavətli Ərşin Rəbbi olan Allahdan başqa məbud yoxdur!”**

(Bu, sıxıntı və üzüntü anında oxunan dualardandır.)

9

«اللّٰهُ، اللّٰهُ رَبِّي لَا أُشْرِكُ بِهِ شَيْئًا»

*Allahu, Allahu Rabbi, lə uşriki bihi şey’ən.*

**“Rəbbim Allahdır, Allah! Və mən heç bir şeyi ona şərik qoşmuram!”**

(Bu, sıxıntı və üzüntü anında oxunan dualardandır.)

10

«لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، اللهُ أَكْبَرُ كَبِيرًا، وَالْحَمْدُ لِلهِ كَثِيرًا، سُبْحَانَ اللهِ رَبِّ الْعَالَمِينَ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللهِ الْعَزِيزِ الْحَكِيمِ»

*Lə ilahə illəllahu vahdəhu lə şərikə ləh. Allahu əkbəru kəbiran, vəlhəmdulilləhi kəsiran, subhanəllahi rabbil-aləmin. Lə hovlə və lə quvvətə illə billəhil-azizil-həkim.*

**“Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allah böyüklükdə ən Böyükdür! Allaha çoxlu-çoxlu həmd olsun!**

**Aləmlərin Rəbbi olan Allah pak və müqəddəsdir! Qüdrət və güc yalnız Qüdrətli, Müdrik Allahdadır!”**

11

«لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ لِلهِ، وَلَا إِلَهَ إِلَّا اللهُ، وَاللهُ أَكْبَرُ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ»

*Lə ilahə illəllahu vəhdahu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şey’in qadir. Subhanəllahi, vəlhəmdulilləhi, və lə ilahə illallahu, vəllahu əkbər, və lə hovlə və lə quvvətə illə billəhil-aliyyil-azim.*

Sonrakı Əvvəlki İlk səhifəyə qayıtmaq

**“Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allahdadır!”**

12

«لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ، أَنْجَزَ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الْأَحْزَابَ وَحْدَهُ»

*Lə ilahə illəllahu vahdəhu, əncəzə və’dəhu, və nəsara abdəhu və həzəməl-əhzabə vəhdəh.*

**“Allahdan başqa *ibadətə layiq haqq* məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və *düşmənlərdən* olan dəstələri tək Özü məğlub etdi!”**

13

«اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلَّا أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ لَكَ بِذَنْبِي فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ»

*Allahummə, əntə rabbi, lə ilahə illə ənt, xaləqtəni və ənə abdukə, və ənə alə ahdikə və və'dikə məs-tətə'tu, əuzu bikə min şərri mə sanə'tu. Əbu'u ləkə bini'mətikə aleyyə, və əbu'u bizənbi. Fəğfir-li fəinnəhu lə yəğfiruz-zunubə illə ənt.*

**"Allahım! Sən mənim Rəbbimsən. Səndən başqa məbud yoxdur. Məni sən yaratdın və mən sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!"**

14

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِأَنَّ لَكَ الْحَمْدُ، لَا إِلَهَ إِلَّا أَنْتَ الْمَنَّانُ، بَدِيعُ السَّمَوَاتِ وَالْأَرْضِ، يَا ذَا الْجَلَالِ وَالْإِكْرَامِ، يَا حَيُّ يَا قَيُّومُ»

*Allahummə, inni əs'əlukə bi ənnə ləkəl-həmd, lə ilahə illə ənt, əl-Mənnanu, bədi'us-səmavati val-ərd, ya zəl-cəlali vəl-ikram, ya Həyyu, yə Qayyum.*

**“Allahım, Sənə yalvarıram! Həmd Sənədir. Səndən başqa məbud yoxdur. Lütfkarsan! Ey göyləri və yeri Yaradan! Ey əzəmət və ehtiram sahibi! Ey Yaşayan, ey Qəyyum!”**

(Hədisdə xəbər verilir ki, bu duada Allahın əzəmətli adı zikr edilir. O ad ki, onunla Allahı çağırdıqda, duanı qəbul edər, onunla Allahdan istədikdə, istədiyini verər.)

15

«سُبْحَانَكَ مَا أَعْظَمَكَ رَبَّنَا»

*Subhanəkə, mə ə’zəməkə Rabbənə.*

**“Allahım, Sən pak və müqəddəssən! Sən necədə əzəmətlisən, ey Rəbbimiz!”**

16

«سُبْحَانَ ذِي الْجَبَرُوتِ وَالْمَلَكُوتِ وَالْكِبْرِيَاءِ وَالْعَظَمَةِ»

*Subhanə zil-cəbəruti, vəl-mələkuti, vəl-kibriyai, vəl-əzəməh.*

**“Qüdrət, səltənət, böyüklük və əzəmət Sahibi pak və müqəddəsdir!”**

17

«اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ ذُو الْمَلَكُوتِ وَالْجَبَرُوتِ وَالْكِبْرِيَاءِ وَالْعَظَمَةِ»

*Allahu əkbər, Allahu əkbər, Allahu əkbər! Subhanə zul-mələkuti, vəl-cəbəruti, vəl-kibriyai, vəl-əzəməh.*

**“Allah ən böyükdür! Allah ən böyükdür! Allah ən böyükdür! Səltənət, qüdrət, böyüklük və əzəmət Sahibi pak və müqəddəsdir!”**

18

«اللهُ أَكْبَرُ كَبِيرًا، وَالْحَمْدُ لِلهِ كَثِيرًا، وَسُبْحَانَ اللهِ بُكْرَةً وَأَصِيلًا»

*Allahu əkbəru kəbiran, vəl-həmdulilləhi kəsiran, və subhanəllahi bukratən və əsilən.*

**“Allah böyüklükdə ən Böyükdür! Allaha çoxlu-çoxlu həmd olsun! Səhər-axşam Allaha təriflər olsun!”**

## Dua edən kimsənin Allahı təriflədikdən sonra Peyğəmbərə ﷺ salavat gətirməsi müstəhəbdir:

«اللَّهُمَّ صَلِّ وَسَلِّم عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ، وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ»

**"Allahummə salli və səllim alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə ali İbrahimə, innəkə həmidun məcid/ Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua və salam ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!"**

Əvvəlki

İlk səhifəyə qayıtmaq

# Quranda zikr olunan dualar

Sonrakı

İlk səhifəyə qayıtmaq

1

﴿حَسْبِيَ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۖ عَلَيْهِ
تَوَكَّلْتُۖ وَهُوَ رَبُّ ٱلْعَرْشِ ٱلْعَظِيمِ ١٢٩﴾

[التوبة:١٢٩]

*Həsbiyəllahu lə ilahə illə huvə aleyhi təvəkkəltu və huvə Rabbul-arşil-azim.*

**“Mənə Allah yetər. Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!”** (ət-Tovbə, 129).

2

﴿لَّآ إِلَٰهَ إِلَّآ أَنتَ سُبۡحَٰنَكَ إِنِّي كُنتُ مِنَ ٱلظَّٰلِمِينَ ٨٧﴾ [الأنبياء:٨٧]

*Lə ilahə illə əntə. Subhanəkə, inni kuntu minəz-zalimin.*

**“Səndən başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!”**

(əl-Ənbiya, 87).

3

﴿رَبِّ ٱجۡعَلۡنِي مُقِيمَ ٱلصَّلَوٰةِ وَمِن ذُرِّيَّتِيۚ رَبَّنَا وَتَقَبَّلۡ دُعَآءِ ٤٠﴾ [إبراهيم: ٤٠]

*Rabbic-alni muqiməs-saləti və min zurriyyəti, Rabbənə və təqabbəl duai.*

**“Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə!”** (İbrahim, 40).

4

﴿هُنَالِكَ دَعَا زَكَرِيَّا رَبَّهُۥۖ قَالَ رَبِّ هَبۡ لِي مِن لَّدُنكَ ذُرِّيَّةٗ طَيِّبَةًۖ إِنَّكَ سَمِيعُ ٱلدُّعَآءِ ٣٨﴾ [آل عمران:٣٨]

*Rabbi həb li min lədunkə zurriyyətən tayyibətən, innəkə səmiud-duai.*

**“Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları eşidənsən.”**

(Ali-İmran, 38).

5

﴿رَبَّنَا ٱغْفِرْ لَنَا ذُنُوبَنَا وَإِسْرَافَنَا فِيٓ أَمْرِنَا وَثَبِّتْ أَقْدَامَنَا وَٱنصُرْنَا عَلَى ٱلْقَوْمِ ٱلْكَٰفِرِينَ ١٤٧﴾ [آل عمران:١٤٧]

*Rabbənə-ğfir lənə zunubənə və israfənə fi əmrinə və səbbit əqdamənə vənsurnə aləl-qovmil-kəfirin.*

**“Ey Rəbbimiz, günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla, qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!”** (Ali-İmran, 147).

6

﴿رَّبِّ ٱغۡفِرۡ وَٱرۡحَمۡ وَأَنتَ خَيۡرُ ٱلرَّٰحِمِينَ ١١٨﴾ [المؤمنون:١١٨]

*Rabbiğfir vərhəm və əntə xeyrur-rahimin.*

**“Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!”**

(əl-Muminun, 118).

7

﴿رَبِّ إِنِّي ظَلَمۡتُ نَفۡسِي فَٱغۡفِرۡ لِي﴾

[القصص:١٦]

*Rabbi inni zaləmtu nəfsi fəğfir li.*

**“Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!”**

(əl-Qəsəs, 16).

8

﴿رَبَّنَآ أَفۡرِغۡ عَلَيۡنَا صَبۡرٗا وَثَبِّتۡ أَقۡدَامَنَا وَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ٢٥٠﴾

[البقرة: ٢٥٠]

*Rabbənə-friğ aleynə sabran və səbbit əqdamənə vənsurnə aləl-qovmil-kafirin.*

**“Ey Rəbbimiz! Bizə bollu səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə *qələbə çalmaqda* bizə yardım et!”** (əl-Bəqərə, 250).

Sonrakı

Əvvəlki

İlk səhifəyə qayıtmaq

9

﴿رَبَّنَا لَا تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِن لَّدُنكَ رَحْمَةً ۚ إِنَّكَ أَنتَ ٱلْوَهَّابُ ٨﴾ [آل عمران:٨]

*Rabbənə lə tuziğ qulubənə bə’də iz hədəytənə və həb lənə min lədunkə rahmətən innəkə əntəl-Vəhhab.*

**“Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən.”** (Ali-İmran, 8).

10

﴿رَبِّ ٱشۡرَحۡ لِي صَدۡرِي ۝٢٥ وَيَسِّرۡ لِيٓ أَمۡرِي ۝٢٦﴾ [طه:٢٥-٢٦]

*Rabbi-şrah li sadri və yəssir li əmri.*

**"Ey Rəbbim! Köksümü açıb genişlət! İşimi yüngülləşdir!"**

(Ta ha, 25-26).

11

﴿مَسَّنِيَ ٱلضُّرُّ وَأَنتَ أَرۡحَمُ ٱلرَّٰحِمِينَ ۝٨٣﴾ [الأنبياء:٨٣]

*Məssəniyəd-durru və əntə ərhəmur-rahimin.*

**"Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!"** (əl-Ənbiya, 83).

12

﴿رَبِّ أَعُوذُ بِكَ مِنْ هَمَزَاتِ ٱلشَّيَـٰطِينِ ﴿٩٧﴾ وَأَعُوذُ بِكَ رَبِّ أَن يَحْضُرُونِ ﴿٩٨﴾﴾

[المؤمنون:٩٧–٩٨]

*Rabbi əuzu bikə min həməzatiş-şəyatini və əuzu bikə Rabbi ən yəhdurun.*

**“Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!”**

(əl-Muminun, 97-98).

13

﴿رَبَّنَا ٱصۡرِفۡ عَنَّا عَذَابَ جَهَنَّمَۖ إِنَّ عَذَابَهَا كَانَ غَرَامًا ٦٥﴾ [الفرقان:٦٥]

*Rabbənə-srif annə əzabə cəhənnəmə innə əzabəhə kənə ğaramən.*

**“Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir.”** (əl-Furqan, 65).

14

﴿وَسِعَ رَبُّنَا كُلَّ شَيۡءٍ عِلۡمًاۚ عَلَى ٱللَّهِ تَوَكَّلۡنَاۚ رَبَّنَا ٱفۡتَحۡ بَيۡنَنَا وَبَيۡنَ قَوۡمِنَا بِٱلۡحَقِّ وَأَنتَ خَيۡرُ ٱلۡفَٰتِحِينَ ٨٩﴾ [الأعراف:٨٩]

*Vəsia Rabbunə kullə şey'in ilmən, aləllahi təvəkkəlnə, Rabbənə-ftəh bəynənə və bəynə qovminə bil-həqqi və əntə xayrul-fatihin.*

**“Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Axı Sən hökm verənlərin ən yaxşısısan.”** (əl-Əraf, 89).

15

﴿ٱرۡزُقۡنَا وَأَنتَ خَيۡرُ ٱلرَّٰزِقِينَ ١١٤﴾
[المائدة: ١١٤]

*Urzuqnə və əntə xayrur-raziqin.*

**“Bizə ruzi ver, Sən ruzi verənlərin ən yaxşısısan!”** (əl-Maidə, 114).

16

﴿رَبَّنَآ ءَاتِنَا مِن لَّدُنكَ رَحۡمَةٗ وَهَيِّئۡ لَنَا مِنۡ أَمۡرِنَا رَشَدٗا ١٠﴾ [الكهف: ١٠]

*Rabbənə atinə min lədunkə rahmətən və həyyi lənə min əmrinə raşədə.*

**“Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!”** (əl-Kəhf, 10).

17

﴿رَبِّ هَبۡ لِي حُكۡمٗا وَأَلۡحِقۡنِي بِٱلصَّٰلِحِينَ ٨٣﴾ [الشعراء:٨٣]

*Rabbi həb li hukmən və əlhiqni bis-salihin.*

**“Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur!”** (əş-Şuəra, 83).

18

﴿رَّبِّ زِدۡنِي عِلۡمٗا﴾ [طه:١١٤]

*Rabbi zidni ilmən.*

**“Ey Rəbbim! Elmimi artır!”** (Ta ha, 114).

19

﴿رَبِّ إِنِّي لِمَآ أَنزَلۡتَ إِلَيَّ مِنۡ خَيۡرٖ فَقِيرٞ ٢٤﴾ [القصص: ٢٤]

*Rabbi inni limə ənzəltə ileyyə min xeyrin fəqir.*

**“Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyrə ehtiyacım var!”** (əl-Qəsəs, 24).

20

﴿رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَٰجِنَا وَذُرِّيَّٰتِنَا قُرَّةَ أَعْيُنٍ وَٱجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا ٧٤﴾

[الفرقان: ٧٤]

*Rabbənə həb lənə min əzvacinə və zurriyyatinə qurratə ə’ayunin vəc’alnə lil-muttəqinə imamə.*

**“Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!”** (əl-Furqan, 74).

21

﴿رَبِّ أَوْزِعْنِيٓ أَنْ أَشْكُرَ نِعْمَتَكَ ٱلَّتِيٓ أَنْعَمْتَ عَلَيَّ وَعَلَىٰ وَٰلِدَيَّ وَأَنْ أَعْمَلَ صَٰلِحًا تَرْضَىٰهُ وَأَدْخِلْنِي بِرَحْمَتِكَ فِي عِبَادِكَ ٱلصَّٰلِحِينَ ١٩﴾

[النمل:١٩]

*Rabbi əvzini ən əşkura nimətəkəl-ləti ən'amtə aleyyə və alə valideyyə və ən ə'mələ salihən tərdah və ədxilni birahmətikə fi ibadikəs-salihin.*

**"Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, *habelə* Sənin razı qalacağın yaxşı əməli etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"** (ən-Nəml, 19).

22

﴿رَبَّنَا تَقَبَّلْ مِنَّآ إِنَّكَ أَنتَ ٱلسَّمِيعُ ٱلْعَلِيمُ ﴿١٢٧﴾ ﴿وَتُبْ عَلَيْنَآ إِنَّكَ أَنتَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ﴿١٢٨﴾ [البقرة:١٢٧-١٢٨]

*“Rabbənə təqabbəl minnə, innəkə əntəs-səmiul-alim.” – “Və tub aleynə, innəkə əntət-təvvabur-rahim.”*

**“Ey Rəbbimiz! *Bunu* bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!” “Bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!”**

(əl-Bəqərə, 127-128).

Əvvəlki

İlk səhifəyə qayıtmaq

# Namazda deyilən bəzi dualar



Sonrakı

İlk səhifəyə qayıtmaq

1

«اللَّهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ، اللَّهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ الْأَبْيَضُ مِنَ الدَّنَسِ، اللَّهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ بِالثَّلْجِ وَالْمَاءِ وَالْبَرَدِ»

*Allahummə, baid beyni və beynə xatayayə kəmə baədtə beynəl-məşriqi vəl-məğrib. Allahummə, nəqqini min xatayayə kəmə yunəqqas-sovbul-əbyədu minəd-dənəs. Allahummə-ğsilni min xatayayə bis-səlci vəl-mai vəl-bərəd.*

**“Allahım, məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi məni də günahlarımdan uzaqlaşdır! Allahım, ağ paltar kirdən təmizləndiyi kimi məni də günahlarımdan təmizlə! Allahım, mənim günahlarımı qar, su və dolu ilə yu!**

Bu, namazın açılış dualarındandır.

Sonrakı Əvvəlki İlk səhifəyə qayıtmaq

2

«اللَّهُمَّ رَبَّ جَبْرَائِيلَ، وَمِيكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَاوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ، اهْدِنِي لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ»

*Allahummə, Rabbə Cibrailə və Mikailə və İsrafil, fatiras-səmavati vəl-ard, aliməl-ğaybi vəş-şəhadəti, əntə təhkumu beynə ibadikə fimə kənu fihi yəxtəlifun. İhdini liməx-tulifə fihi minəl-həqqi bi iznik, innəkə təhdi mən təşau ilə sıratin mustəqim.*

**“Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrinin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda məni Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən”**

Bu, namazın açılış dualarındandır, xüsusilə də, gecə namazında (qiyamu-leyldə) oxunur. Bu dua, hər hansı bir məsələnin haqq olub-olmadığını bilmədikdə, qəlbə şəbhə düşdükdə oxunur.

3

«وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالْأَرْضَ حَنِيفًا، وَمَا أَنَا مِنَ الْمُشْرِكِينَ، إِنَّ صَلَاتِي، وَنُسُكِي، وَمَحْيَايَ، وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ، لَا شَرِيكَ لَهُ، وَبِذَلِكَ أُمِرْتُ وَأَنَا مِنَ الْمُسْلِمِينَ، اللَّهُمَّ أَنْتَ الْمَلِكُ لَا إِلَهَ إِلَّا أَنْتَ أَنْتَ رَبِّي، وَأَنَا عَبْدُكَ، ظَلَمْتُ نَفْسِي، وَاعْتَرَفْتُ بِذَنْبِي، فَاغْفِرْ لِي ذُنُوبِي جَمِيعًا، إِنَّهُ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ، وَاهْدِنِي لِأَحْسَنِ الْأَخْلَاقِ لَا يَهْدِي لِأَحْسَنِهَا إِلَّا أَنْتَ، وَاصْرِفْ عَنِّي سَيِّئَهَا لَا يَصْرِفُ عَنِّي سَيِّئَهَا إِلَّا أَنْتَ، لَبَّيْكَ وَسَعْدَيْكَ وَالْخَيْرُ كُلُّهُ

فِي يَدَيْكَ، وَالشَّرُّ لَيْسَ إِلَيْكَ، أَنَا بِكَ وَإِلَيْكَ، تَبَارَكْتَ وَتَعَالَيْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ»

*Vəccəhtu vəchiyə lilləzi fətəras-səmavati vəl-arda hənifən və mə ənə minəl-muşrikin. İnnə saləti və nusuki və məhyayə və məmati lilləhi Rabbil-aləmin, lə şərikə ləhu və bi zalikə umirtu və ənə minəl-muslimin. Allahummə, əntəl-məliku lə ilahə illə ənt. Əntə Rabbi və ənə abdukə, zaləmtu nəfsi və'tərəftu bi zənbi, fəğfir li zunubi cəmian, innəhu lə yəğfiriz-zunubə illə ənt, vəhdini liəhsənil-əxlaqi lə yəhdi liəhsənihə illə ənt, vəsrif anni seyyiəhə lə yəsrifu anni seyyiəhə illə ənt. Ləbbeykə və sə'deykə, vəl-xayru*

*kulluhu fi yədeykə, vəş-şərru leysə ileykə, ənə bikə və ileykə, təbarəktə və təaleyt, əstəğfirukə və ətubu ileyk.*

**“Üzümü hənif** (ixlasla Allaha ibadət edənlərdən) **olaraq göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm. Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanlardanam. Allahım! Hökmdar Sənsən. Səndən başqa məbud yoxdur. Sən mənim Rəbbimsən, mən isə Sənin qulun. Özüməzülmetdimvəgünahımıetiraf**

**etdim. Mənim bütün günahlarımı bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlaya bilərsən. Mənə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən. Buyur, əmrinə müntəzirəm! Xeyir bütünlüklə Sənin iki Əlindədir. Şər isə Sənə aid deyildir. Mən Səninləyəm, Sənə də dönəcəyəm. Mübarək və Ucasan! Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm”**

Bu, namazın açılış dualarındandır, xüsusilə də, gecə namazında (qiyamu-leyldə) oxunur.

4

«سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ اللَّهُمَّ اغْفِرْ لِي»

*Subhanəkə Allahummə, Rabbənə və bihamdikə, Allahummə-ğfirli.*

**“Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!”**

Bu, rükuda və səcdədə deyilən duadır.

5

«اللَّهُمَّ أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ لَا أُحْصِي ثَنَاءً عَلَيْكَ أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ»

*Allahummə inni əuzu birıdakə min səxətikə və bimu'afatikə min uqubətikə və əuzu bikə minkə, lə uhsi sənaən aleykə əntə kəmə əsneytə alə nəfsikə.*

**"Allahım, Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram. Səndən, Sənə sığınıram. Mən Səni *layiqincə* tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!"**

Bu, səcdədə deyilən duadır.

6

«اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ، دِقَّهُ، وَجِلَّهُ، وَأَوَّلَهُ وَآخِرَهُ وَعَلَانِيَتَهُ وَسِرَّهُ»

*Allahummə-ğfir li zənbi kulləhu, diqqəhu və cilləhu, və əvvələhu və axirahu və alaniyətəhu və sirrahu.*

**“Allahım, günahlarımın hamısını – kiçiyini və böyüyünü, birincisini və axırıncısını, aşkarını və gizlisini mənə bağışla!”**

Bu, səcdədə deyilən duadır.

7

«اللَّهُمَّ اجْعَلْ لِي فِي قَلْبِي نُورًا، وَفِي لِسَانِي نُورًا، وَفِي سَمْعِي نُورًا، وَفِي بَصَرِي نُورًا، وَمِنْ فَوْقِي نُورًا، وَمِنْ تَحْتِي نُورًا، وَعَنْ يَمِينِي نُورًا، وَعَنْ شِمَالِي نُورًا، وَمِنْ بَيْنِ يَدَيَّ نُورًا، وَمِنْ خَلْفِي نُورًا، وَاجْعَلْ فِي نَفْسِي نُورًا، وَأَعْظِمْ لِي نُورًا»

*Allahumməc'al li fi qalbi nuran, və fi lisəni nuran, və fi səm'i nuran, və fi bəsari nuran, və min fovqi nuran, və min təhti nuran, və an yəmini nuran,*

*və an şimali nuran, və min beynə yədeyyə nuran, və min xəlfi nuran, vəc'al fi nəfsi nuran, və ə'zim li nuran.*

**"Allahım, qəlbimə və dilimə nur saç! Qulağıma və gözümə nur saç! Başımın üstündən və ayağımın altından nur saç! Sağımdan və solumdan nur saç! Önümə və arxama nur saç! Nəfsimi nurlandır! Mənim üçün böyük bir nur!"**

Bu, səcdədə - ələlxüsus da gecə namazında deyilən duadır.

8

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ جَهَنَّمَ، وَمِنْ عَذَابِ الْقَبْرِ، وَمِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ، وَمِنْ شَرِّ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ»

*Allahummə, inni əuzu bikə min əzabi Cəhənnəmə, və min əzabil-qabri, və min fitnətil-məhyə vəl-məmati, və min şərri fitnətil-məsihid-dəccal.*

**“Allahım, Cəhənnəm əzabından, qəbir əzabından, həyatın və ölümün fitnəsindən, dəccal məsihin fitnəsinin şərindən Sənə pənah aparıram!”**

Bu, sonuncu təşəhhüddə, salamdan əvvəl deyilən duadır.

9

«اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ»

*Allahummə, əinni alə zikrikə, və şukrikə, və husni ibadətik.*

**“Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!”**

Bu, sonuncu təşəhhüddə, salamdan əvvəl deyilən duadır.

10

«اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، وَمَا أَسْرَفْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ، لَا إِلَهَ إِلَّا أَنْتَ»

*Allahummə-ğfir li mə qaddəmtu, və mə əxxartu, və mə əsrartu, və mə ə'ləntu, və mə əsraftu, və mə əntə ə'ləmu bihi minni. Əntəl-muqaddimu, və əntəl-muəxxiru, lə iləhə illə ənt.*

**"Allahım, əvvəl etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım, xəta etdiyim və məndən daha yaxşı bildiyin pis əməllərimi**

**bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur”**

Bu, sonuncu təşəhhüddə, salamdan əvvəl deyilən duadır.

11

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْمَأْثَمِ، وَالْمَغْرَمِ»

*Allahummə, inni əuzu bikə minəl-mə’səmi vəl-məğrəm.*

**“Allahım! Günahdan və cərimədən** (borcdan) **Sənə sığınıram!”**

Bu, sonuncu təşəhhüddə, salamdan əvvəl deyilən duadır.

12

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْجَنَّةَ، وَأَعُوذُ بِكَ مِنَ النَّارِ»

*Allahummə, innii əs'əlukəl-cənnətə və əuzu bikə minən-nər.*

**"Allahım, Səndən Cənnəti diləyirəm və Cəhənnəmdən Sənə sığınıram!"**

Bu, sonuncu təşəhhüddə, salamdan əvvəl deyilən duadır.

13

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ الْبُخْلِ وَأَعُوذُ بِكَ مِنْ الْجُبْنِ وَأَعُوذُ بِكَ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ الْعُمُرِ وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ»

*Allahummə, inni əuzu bikə minəl-buxli, və əuzu bikə minəl-cubni, və əuzu bikə min ən uraddə ilə ərzəlil-umuri, və əuzu bikə min fitnətid-dunya, və əuzu bikə min əzabil-qabr.*

**“Allahım, xəsislikdən Sənə sığınıram. Qorxaqlıqdan Sənə sığınıram. Qocalığın ən düşkün çağına çatmaqdan Sənə sığınıram. Dünyanın fitnəsindən sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram!”**

Bu, sonuncu təşəhhüddə, salamdan əvvəl deyilən duadır.

14

«اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا وَلَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ، وَارْحَمْنِي إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ»

*Allahummə, inni zaləmtu nəfsi zulmən kəsiran, və lə yəğfiruz-zunubə illə ənt, fəğfir li məğfirətən min indikə, vərhəmni, innəkə əntəl-ğafurur-rahim.*

**“Allahım, mən özümə çoxlu zülm etdim. Günahları yalnız Sən bağışlayırsan. Özün günahımdan keçməklə məni bağışla və mənə rəhm et. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!”**

Bu, namazın səcdəsində, yaxud sonuncu təşəhhüddən sonra, salamdan əvvəl deyilən duadır.

15

«اللَّهُمَّ حَاسِبْنِي حِسَابًا يَسِيرًا»

*Allakummə, hasibni hisabən yəsiran.*

**“Allahım, mənim haqq-hesabımı yüngül et!”**

Bu, namazın səcdəsində, yaxud sonuncu təşəhhüddən sonra, salamdan əvvəl deyilən duadır.

16

«رَبِّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ»

*Allahummə, qıni əzabəkə yovmə təb'asu ibadək.*

**“Allahım, bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru!”**

Bu, namazın səcdəsində, yaxud sonuncu təşəhhüddən sonra, salamdan əvvəl deyilən duadır.

# Peyğəmbərin ﷺ etdiyi dualar



1

«اللَّهُمَّ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ»

*Allahummə, Rabbənə atinə fid-dunyə həsənətən və fil-axirati həsənətən və qınə azəbən-nər.*

**“Allahım! Ey Rəbbimiz, bizə dünyada da gözəl nemətlər ver, axirətdə də gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru!”**

Bu, Peyğəmbərin ﷺ ən çox etdiyi duadır.

2

«اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَعَافِنِي، وَارْزُقْنِي»

*Allahummə-ğfir li, vərhəmni, vəhdini, və afini, vərzuqni.*

**“Allahım, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə salamatlıq bəxş et və mənə ruzi ver!”**

Bu, dünyada və axirətdə olan xeyrlərin hamısını özündə cəm edən bir duadır.

3

«اَللّٰهُمَّ اكْفِنِيْ بِحَلاَلِكَ عَنْ حَرَامِكَ وَاَغْنِنِيْ بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ»

*Allahumməkfini bihəlalikə an həramik, və əğnini bifadlikə ammən sivak.*

**“Allahım, məni halal nemətlərinlə kifayətləndirib haramına möhtac etmə! Məni Öz lütfünlə Özündən başqasına möhtac etmə!”**

Bu, borcun ödənilməsi üçün edilən duadır.

4

«اللَّهُمَّ مُصَرِّفَ الْقُلُوبِ صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ» «يَا مُقَلِّبَ القُلُوبِ ثَبِّتْ قَلْبِي عَلَى دِينِكَ»

*“Allahummə, musarrifəl-qulub, sarrif qulubənə alə taətik.” – “Ya muqallibəl-qulub, səbbit qalbi alə dinik!”*

**“Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt” “Ey Qəlbləri çevirən *Allahım*, qəlbimi dinin üzərində sabit et!”**

Bu, haqq üzərində sabit qalmaq üçün edilən duadır, həm də, Peyğəmbərin ﷺ ən çox etdiyi duadır.

## 5

«اللهُمَّ إِنِّي أَسْأَلُكَ مِنَ الْخَيْرِ كُلِّهِ عَاجِلِهِ
وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ، وَأَعُوذُ
بِكَ مِنَ الشَّرِّ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ مَا عَلِمْتُ
مِنْهُ، وَمَا لَمْ أَعْلَمْ، اللهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ
خَيْرِ مَا سَأَلَكَ عَبْدُكَ وَنَبِيُّكَ مُحَمَّدٌ ﷺ،
وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا عَاذَ مِنْهُ عَبْدُكَ
وَنَبِيُّكَ، اللهُمَّ إِنِّي أَسْأَلُكَ الْجَنَّةَ وَمَا قَرَّبَ
إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَأَعُوذُ بِكَ مِنَ النَّارِ
وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَأَسْأَلُكَ
أَنْ تَجْعَلَ كُلَّ قَضَاءٍ تَقْضِيهِ لِي خَيْرًا»

*Allahummə, inni əs'əlukə minəl-xayri kullihi, acilihi və əacilihi, mə alimtu minhu və mə ləm ə'ləm, və əuzu bikə minəş-şərri kullihi, acilihi və əacilihi, mə alimtu minhu və mə ləm ə'ləm. Allahummə, inni əs'əlukə min xayri mə sə'ələkə abdukə və nəbiyyukə Muhəmmədun ﷺ və əuzu bikə min şərri mə azə minhu abdukə və nəbiyyukə. Allahummə, inni əs'əlukəl-cənnətə və mə qarrabə ileyhə min qovlin əv əməl, və əuzu bikə minən-nari və mə qarrabə ileyhə min qovlin əv əməl, və əs'əlukə ən təc'alə kullə qadain qadaytəhu li xeyran.*

**“Allahım, bildiyim və bilmədiyim, tez və gec olan bütün xeyirləri Səndən diləyir və bildiyim və bilmədiyim, tez və gec olan bütün şər əməllərdən Sənə sığınıram. Allahım, qulun və peyğəmbərin Muhəmmədin ﷺ Səndən istədiklərini Səndən istəyir və qulun və peyğəmbərinin sığındığı şər əməllərdən Sənə sığınıram. Allahım, Cənnəti və ona yaxınlaşdıran hər bir söz və əməli Səndən istəyir, Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir söz və əməldən Sənə sığınıram. Səndən mənim üçün yazdığın hər bir hökmün xeyrli olmasını istəyirəm”**

Bu, yığcam və kamil mənalı dualardandır.

6

«يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ، أَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، وَلَا تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ»

*Ya Həyyu, ya Qayyum! Birahmətikə əstəğisu, əslih li şə'ni kulləhu və lə təkilni ilə nəfsi tarfətə ayn.*

**"Ey** (əbədi) **Yaşayan, ey Qəyyum** (kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan)! **Mərhəmətinlə kömək diləyirəm. Mənim bütün işlərimi yoluna qoy! Məni bir göz qırpımı belə başlı-başına buraxma!"**

(Bu, sıxıntı və üzüntü anında oxunan dualardandır.)

7

«اللَّهُمَّ إِنِّي عَبْدُكَ ابْنُ عَبْدِكَ ابْنُ أَمَتِكَ
نَاصِيَتِي بِيَدِكَ مَاضٍ فِيَّ حُكْمُكَ عَدْلٌ
فِيَّ قَضَاؤُكَ، أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ
سَمَّيْتَ بِهِ نَفْسَكَ أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ أَوْ
عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ أَوِ اسْتَأْثَرْتَ بِهِ
فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ أَنْ تَجْعَلَ الْقُرْآنَ
رَبِيعَ قَلْبِي وَنُورَ بَصَرِي وَجِلَاءَ حُزْنِي
وَذَهَابَ هَمِّي»

*Allahummə, inni abdukə, ibnu abdikə, ibnu əmətikə, nasıyəti biyədikə, madın fiyyə hukmukə, adlun fiyyə qadaukə, əs'əlukə bikulli ismin huvə ləkə, səmmeytə bihi nəfsəkə, əv ənzəltəhu fi kitəbikə, əv alləmtəhu əhədən min xalqikə, əv istə'sərtə bihi fi ilmil-ğaybi indəkə, ən təc'aləl-Qur'anə rəbiə qalbi, və nura basari, və cəlaə huzni, və zəhabə həmmi.*

**“Allahım, mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Kəkilim** (məni idarə etmək) **Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud**

